UOT 338.2:330.341.2 (479.24)21

# Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təmin edilməsi üzrə dövlət siyasətinin institusional aspektləri



**Əliyev Seymur Cavanşir oğlu***
Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı

## Xülasə

*Tədqiqatın məqsədi*: Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təmin edilməsi üzrə dövlət siyasətinin institusional aspektləri və konkret dövlət institutlarının sözügedən sferadakı fəaliyyət xüsusiyyətlərinin kompleks tədqiqindən ibarətdir.

*Tədqiqatın metodologiyası*: sistemli yanaşma və statistik qruplaşdırma metodları.

*Tədqiqatın nəticələri*: Azərbaycan Respublikasının iqtisadi təhlükəsizlik mühiti öyrənilmiş, potensial və real təhdidlər təsbit edilmiş və onlara adekvat preventiv mexanizmlərin reallaşdırılması istiqamətində dövlət institutlarının fəaliyyət xüsusiyyətləri kompleks şəkildə şərh edilmişdir.

*Tədqiqatın məhdudiyyətləri*: Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təmin edilməsi üzrə dövlət siyasətinin institusional aspektləri qismən yeni tədqiqat mövzusu olduğundan bu mövzuda geniş spektrli tədqiqat işlərinin azlığı səbəbindən müqayisələr aparılacaq alternativ tədqiqat işlərindən istifadə edilməməsi.

*Tədqiqatın praktiki əhəmiyyəti*: tədqiqatda irəli sürülən müddəalar sözügedən sahədə fəaliyyət göstərən dövlət institutları arasında vəzifə və səlahiyyət bölgüsünün əsas trayektoriyalarının müəyyənləşdirilməsinə şərait yaratmaqla bu istiqamətdə hazırlanan dövlət konsepsiyasında mühüm əhəmiyyət kəsb edən tənzimlənmə mexanizmlərinin bəzi aspektlərini ortaya qoyur.

*Tədqiqatın orjinallığı və elmi yeniliyi*: iqtisadi təhlükəsizliyin təmini mexanizmlərində institusional aspektlər ilə əlaqədar nəzəri və empirik mənbələr araşdırılaraq, zəruri sistemləşdirmələr aparılmışdır.

**Açar sözlər:** *iqtisadi qloballaşma, milli inkişaf strategiyası, iqtisadi təhlükəsizlik, potensial və real təhdidlər, institusional mexanizmlər.*

* AZ 1000. Bakı ş., İstiqlaliyyət küç., 6.
s.c.aliyev@hotmail.com



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

## 1. Giriş

Müasir dünya iqtisadiyyatında müşahidə edilən inkişaf və eləcə də dezinkişaf trendləri birmənalı şəkildə konkret milli iqtisadiyyatların inkişaf strategiyalarında əsas istinad amilləri kimi qiymətləndirilməkdədir. Azərbaycan Respublikasıda dünya iqtisadiyyatının tam hüquqlu üzvü kimi sistemin oyun qaydaları çərçivəsində milli maraqları təmin etmək üçün müxtəlif strategiyalar reallaşdırmaqla qısa və eləcə də uzunmüddətli dividendlər əldə etməyə çalışır. Müasir beynəlxalq münasibətlərə nəzəri aspektdən yanaşdıqda, heç şübhəsiz, kiçik dövlətlər üçün milli təhlükəsizlik sistemlərində əsas vektorial istiqamət kimi məhz iqtisadi təhlükəsizliyin təminatı məsələlərinin daha qabarıq şəkildə önə çıxdığını görə bilərik.

Lakin Respublikamızın mövcud geosiyasi və eləcə də geoiqtisadi situasiyası bizim üçün milli təhlükəsizliyin bütün istiqamətlərinin koordinasiyalı şəkildə təmin edilməsi zərurətini ali məqsəd kimi prioritetləşdirməyə sövq etməkdədir. Problemə məhz bu konteksdən yanaşdıqda milli təhlükəsizliyin təmini problemləri, xüsusilə də, iqtisadi təhlükəsizliyin təmin edilməsinin institusional aspektlərinin tədqiqi, fikrimizcə, kifayət qədər aktual xarakter kəsb etməkdədir.

## 2. İqtisadi qloballaşma şəraitində təhlükəsizlik (*iqtisadi*) problemləri və onun milli inkişaf strategiyalarındakı təzahür xüsusiyyətləri

XXI əsrin əvvəllərindən etibarən dünya iqtisadiyyatında müşahidə edilən tendensiyalar, heç şübhəsiz, iqtisadi qloballaşma prosesinin fonunda daha da effektiv xarakter kəsb edir. Ümumiyyətlə, qloballaşma prosesinə müxtəlif dövrlərdə müxtəlif mütəxəssislər tərəfindən fərqli formalarda mahiyyət etibarilə isə demək olar ki, eyni məzmuna malik fikirlər söylənilmişdir. Həmin fikirləri ümumiləşdirərək qeyd edə bilərik ki, qloballaşma dünya inkişafının qeyri-müəyyən, hələlik miqyası, mənzərəsi və nəticələri bəlli olmayan keçid mərhələsi kimi qiymətləndirilməkdədir [1, s. 14-15].

Prosesə məhz bu rakusdan yanaşdıqda qeyd edə bilərik ki, ümumiyyətlə, sözügedən sahədə tədqiqatlar aparmış mütəxəssislər əksəriyyət etibarilə "qloballaşma" anlayışını "qlobal" terminin etimologiyasına analogiya kimi istifadə etməklə, sözügedən tendensiyanı tamlıq, bütövlük və yaxud ümumdünya mənasında təhlil etmişlər [2, s. 332-333; 3, s. 284]. Tarixi yaxın keçmişə təsadüf edən qloballaşma fenomeni müstəqil bir kateqoriya kimi daha geniş mənada bütöv taleyi gerçəkləşən dünyada baş verən dəyişikliklərin səbəbi, mahiyyəti və meyillərini ifadə etmək üçün tətbiq olunur. Qloballaşma proseslərinin bilavasitə təhlili ilə məşğul olan yeni, elmlərarası tədqiqat sahəsində, qlobalistikada, "qloballaşma" anlayışı iqtisadiyyat, siyasət, mədəniyyət, beynəlxalq münasibətlər sahəsində baş verən, planetar miqyaslı inteqrasiya və dezinteqrasiya proseslərinin səciyyələndirilməsi üçün, həmin

ümumdünya səviyyəsində əhatəmizdəki mühitdə baş verən antropogen dəyişikliklərin izahı üçün istifadə olunur [4, s. 19-20-21, 35].

Qloballaşma prosesinin konkret milli iqtisadiyyatlar üçün təsiri xüsusiyyətləri spesifik xarakter kəsb etdiyindən prosesin pozitiv və neqativ tərəflərinin yekun çəkisi ölkələrə görə dəyişməkdədir. Prosesi kompleks tədqiq edərək qeyd etməliyik ki, qloballaşma prosesi özü özlüyündə suveren dövlətlər üçün müxtəlif modifikasiyalarda müşahidə edilən modellərin yaradılması ilə nəticələnmişdir. Eyni zamanda "qloballaşma" terminin "geosiyasət" termini ilə eyniləşdirən mütəfəkkirlərin yanaşmalarını əsas götürsək sözügedən prosesin dünya xəritəsinin iqtisadi, siyasi, texnaloji və informasiya çalarlarının təzahürü kimi qiymətləndirərək bu yeni yaranmış imkanlardan maksimum yararlanmağın əhəmiyyətliliyini xüsusilə vurğulamaq yerinə düşərdi.

### 3. İqtisadi təhlükəsizlik fenomeni və Azərbaycan Respublikasının iqtisadi təhlükəsizlik mühitinin sistemli təhlili

Problemə tarixi-xronoloji konteksdən yanaşdıqda görə bilərik ki, milli iqtisadiyyat kimi təqdim edilən iqtisadi subyektlərin sayı keçən yüzillikdə təqribən beş dəfəyə qədər artaraq günümüzdə təqribən iki yüzü keçmişdir. Məhz belə bir mürəkkəb şəraitdə onların fəaliyyət xüsusiyyətlərinin spesifikasında xüsusi tendensional trendlər birmənalı şəkildə müşahidə edilməkdədir. Azərbaycan Respublikası da müstəqillik əldə etdikdən sonra dünya birliyinin tamhüquqlu subyekti kimi öz milli inkişaf strategiyasının əsas parametrlərini milli maraqlara kökləyərək adekvat realizə mexanizmlərini dövriyyəyə salmışdır. Təbii ki, sözügedən milli inkişaf strategiyası qloballaşan dünyada mövcud ictimai-siyasi, iqtisadi durumun müəyyənləşdirilməsi və strateji prioritetlərin hədəfə alınması, konkret nəticələrin əldə edilməsi üçün mövcud resurs və potensialın səfərbər edilməsini özündə əks etdirməkdədir.

Azərbaycanın xarici siyasətinin reallaşdırılmasına ən müxtəlif, ilk növbədə xarici münasibətlər sistemi kimi amillər təsir edir. Azərbaycanın xarici siyasət konsepsiyasında, milli inkişaf stretegiyasının bilavasitə üzvi tərkib hissəsi olan iki təməl aspekt müəyyən edilmişdir - bunlar realizm və siyasi praqmatizmdir [1, s. 243-244]. Beynəlxalq münasibətlər və eləcə də iqtisadi münasibətlər nəzəriyyələrində öz əksini tapmış "kiçik dövlət" və analoji olaraq "kiçik iqtisadiyyat" yanaşmasından çıxış etdikdə bu qəbildən olan milli dövlətlər üçün milli təhlükəsizlik konsepsiyalarında ağırlıq birmənalı şəkildə iqtisadi təhlükəsizliyin üzərinə düşməkdədir [5, s. 165-166]. Respublikamızın bugünkü geosiyasi konyukturası mütləq mənada bu cür strategiyaların reallaşdırılmasına imkan verməsə də, ondan bütövlükdə imtina etməyi də özündə təcəssüm etdirməməkdədir. İqtisadi ampulada dinamik inkişafı qarantiləmiş respublikamız üçün iqtisadi təhlükəsizliyin təmin edilməsi mexanizmləri aidiyyəti institutlar tərəfindən daim diqqət mərkəzindədir.

Qlobal ticarət sistemi üçün zəruri transkontinental nəqliyyat dəhlizinin formalaşdırılmasına imkan verən geostrateji mövqeyə, enerji və karbohidrogen resursları ilə zənginliyə və kifayət qədər sağlam makroiqtisadi stabilliliyə malik olan Respublikamız üçün çağdaş dünyanın ən effektiv sivilizasiya modeli sayılan Şərq-Qərb sintezini ifadə edən geoiqtisadi konseptdə də milli iqtisadi təhlükəsizlik və onun təminatı məsələləri xüsusi istiqamət kimi prioritetləşdirilmişdir. Ümumiyyətlə, təhlükəsizlik və eləcə də onun əsas vektorial istiqamətlərində biri kimi iqtisadi təhlükəsizlik kateqoriyaları olduqca ciddi elmi və praktiki çəkiyə malikdirlər. Belə ki, alman tədqiqatçısı A.Volfersə görə təhlükəsizlik - obyektiv anlamda əldəki dəyərlərə yönəlik heç bir təhdidin olmaması, subyektiv anlamda isə bu dəyərlərə yönəlik bir təhlükənin olacağı qorxusunu daşımaqdadır [6, s. 17, 128].

Məhz bu istiqamətdə daha kostruktiv tədqiqatlar aparmış amerikan konfliktoloq A.Comte-Sponvill isə öz növbəsində təhlükəsizlik anlayışını hər zaman davam edə biləcək və heç bir zaman bitməyəcək bir “müharibə” kimi qiymətləndirərək, onun yerinə yetirilə bilinəcək bir məqsəd olmadığını qeyd etmişdir [7, s.21-22]. Sözügedən kateqoriyanı tədqiq edərək fərqli bir qənaətə gəlmiş ABŞ professoru M.Ayooba görə təhlükəsizlik - dövlətlərin sahib olduqları dəyərlərə, milli və institusional strukturlara və rejimə yönəlik hər hansı bir təhdidin olmaması vəziyyətidir [8, s. 15, 28].

Yuxarıda qeyd etdiyimiz kimi, təhlükəsizlik anlayışının daha konkret istiqamətlərindən biri kimi iqtisadi təhlükəsizliyə dair elmi müddəalar isə öz təzahürünü aşağıdakı kimi tapmışdır. Belə ki, sözügedən sferada ciddi tədqiqatlar aparmış rus professoru S.V.Stepaşinə görə iqtisadi təhlükəsizlik - iqtisadiyyatın elə durumudur ki, bu zaman uzun müddətə şəxsiyyətin həyatı və harmonik inkişafı, cəmiyyətin və dövlətin sosial-iqtisadi, siyasi, mənəvi-psixoloji sabitliyi üçün layiqli şərait, bütün növ resursların optimal məsrəfləri ilə və təbii amillərin tükənməyə yol açmayan istifadəsi ilə daxili və xarici təhlükələrin təsirinə qarşı tab gətirmək qabiliyyəti təmin edilir [9, s. 608]. Bununla yanaşı, tanınmış türk tədqiqatçısı B.Dedeoğlu bu aspektləri daha da ümumiləşdirərək iqtisadi təhlükəsizlik kateqoriyasını - mövcud resursların və situasiyanın qorunması və davam etdirilməsi baxımından bir çox daxili təhdidin eləcə də xarici təhdidlərin və yaxud bu istiqamətlərdə ki, strateji təhminlərin davamlı tənzimlənməsinin reallaşdırılması kimi qeyd edir [10, s. 10,13].

Daha konkret desək iqtisadi təhlükəsizliyə milli təhlükəsizliyin maddi əsası kimi yanaşıldıqda onun təminatı və institusional tənzimlənməsi məsələlərinin olduqca ciddi elmi və praktiki əməmiyyət kəsb etdiyinin şahidi olarıq. Ümumiyyətlə, problemə daha geniş baxış bucağından baxsaq görərik ki, iqtisadi baxımdan öz gələcəyini quran Azərbaycan həm regional, həm də qlobal layihələrdə milli maraqlarını gözləyir [11, s. 8, 23]. Milli maraqların effektiv qorunması mexanizmləri içərisində iqtisadi təhlükəsizlik siyasətinin yürüdülməsi kifayət qədər vacib, vacib olduğu qədər mürəkkəb və məsuliyyətli xarakter daşımaqdadır. Nəzərə alsaq ki, Azərbaycan

Respublikasında milli iqtisadi təhlükəsizlik ilə əlaqədar kompleks tədbirlər ancaq müstəqillik dövrlərində aktuallıq qazanmışdır, onda qısa bir vaxt ərzində bu sahədə əldə edilmiş nailiyyətləri təqdirəlayiq hal kimi qiymətləndirə bilərik. Belə ki, məhz 1995-2011-ci illərdə, xüsusilə də, son səkkiz ildə iqtisadi inkişaf ekspansiyalarla müşahidə edilmişdir və Respublikamızın əsas makroiqtisadi göstəricilərində yüksək tezlikli inkişaf trendləri xüsusilədə inflyasiya, büdcə kəsiri, tədiyyə balansı, faiz dərəcələri, valyuta ehtiyatları və kursları kimi parametrlərdə müşahidə edilən stabillik onun daxili eləcə də xarici təhdidlərə adekvatlılığını zərurətə çevirmişdir.

Qlobal iqtisadi böhran şəraitində bütün dünyada müşahidə edilən resessiya tendensiyalı bir situasiyada respublikamızın analoji dövrdə, yəni 2011-ci ildə iqtisadi artımı 0,1% təşkil etmiş, qeyri-neft sektorunda isə bu göstərici, müvafiq olaraq, 9,4% artmış, investisiyalar isə, öz növbəsində, 20 milyard dollara bərabər olmuşdur ki, bunun da 13 milyardı daxili investisiyalar, 7 milyardı isə xarici investorların vəsaitləridir, valyuta ehtiyatları 41 milyard dollar səviyyəsinə çatmış, Azərbaycanda işsizliyin səviyyəsi 2011-ci ildə daha da aşağı düşmüşdür və bu rəqəm 5,4%, yoxsulluğun səviyyəsi isə yenə də aşağı düşərək 7,6% təşkil etmişdir [12, s. 1-2]. Bütün bu makroiqtisadi göstəricilərin, böhranlı şəraitə baxmayaraq, belə pozitiv olması, heç şübhəsiz, milli iqtisadi strukturların preventiv tədbirləri və çoxvektorlu inkişaf strategiyasının uğurlu realizəsi nəticəsində əldə edilmişdir. Təbii ki, dünya iqtisadiyyatını öz cənginə almış qlobal maliyyə-iqtisadi böhranı uzun perspektivdə öz mənfi təsirləri ilə ölkəmizdən də yan keçməyəcəkdir. Bu neqativ təsirləri minimuma endirmək üçün, heç şübhəsiz, daxili və xarici təhdidlərə adekvat iqtisadi təhlükəsizlik strategiyası reallaşdırılmalı və nəticə etibarilə təhlükəsizliyin institusional təminatı mexanizmləri tətbiq edilməlidir. Məhz bununla əlaqədar olaraq, milli qanunvericilik sistemində əsas normativ-hüquqi sənəd kimi “Milli təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının 29 iyun 2004-cü il tarixli Qanunu  və Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 3 avqust 2004-cü il tarixli Sərəncamı müstəsna əhəmiyyət kəsb etməkdədir.

Bu qanunun 1-ci maddəsinə görə, Azərbaycan Respublikasının milli təhlükəsizliyi – dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunmasının təmin edilməsindən ibarətdir. Qanunun 17-ci maddəsi isə Azərbaycan Respublikasının iqtisadi sahədə milli təhlükəsizliyini – Azərbaycan Respublikasının milli iqtisadiyyatının və iqtisadi münasibətlərinin inkişafına təhlükə yaradan daxili və xarici amillərdən qorunması kimi təsbit etmişdir [13, s. 1-2, 10]. Milli iqtisadi təhlükəsizliyin təmini dedikdə, əsas etibarilə, aidiyyəti hökümət və qeyri-hökumət strukturlarının iqtisadi maraqların təmin edilməsinə yönəlik mümkün daxili və xarici təhdidlərə istiqamətlənmiş vahid adekvat tədbirlər kompleksi nəzərdə tutulur. Problemə məhz nəzəri kontekstdən yanaşdıqda qeyd edə bilərik ki, təhdid - hər hansı bir dövlət,

cəmiyyət və ya şəxsin sahib olduğu dəyərlərə yönəlik olumsuz nəticələr yarada biləcək hadisə və yaxud proseslərdir [14, s. 131]. Digər yanaşmalara görə isə iqtisadi təhlükəsizliyə təhdidlər geniş anlamda müəyyən zaman intervalında ölkənin iqtisadi potensialının enməsi dərəcəsini ifadə edən inteqral göstəricisi kimi və həmçinin, konkret milli iqtisadiyyatlara və eləcə də beynəlxalq iqtisadi sistemin dayanıqlı fəaliyyətinə mənfi təsir göstərə biləcək amil və yaxud şərtlərin məcmusu kimi qiymətləndirilməkdədir [15, s. 119, 172].

Tədqiqatlar şəkildə göstərir ki, Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təmin edilməsində əsas vəzifələrdən biri onun iqtisadi təhlükəsizliyinə təhdidlərin aşkar olunaraq aradan qaldırılması və ya nəzarət altında saxlanılmasıdır. Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinə təhdidlər ölkənin iqtisadi maraqlarının həyata keçirilməsinə mane olan və ya onlara təhlükə yaradan şərait, proses və ya amillərdir.

Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinə təhdidlərin daxili və xarici mənbələri nəzərdə tutulur. Xarici mənbələrə əsasən, bəzi ölkələrin ölkənin daxili və xarici bazarlardan sıxışdırılıb çıxarılmasına cəhd etməsi, xarici bazarlarda təbii resurslar uğrunda beynəlxalq rəqabətin və inkişaf etmiş ölkələrlə müqayisədə texnoloji asılılığın güclənməsi ilə bağlı rəqabətqabiliyyətli iqtisadiyyatın yaradılmasına maneçilik törədilməsi, xarici ölkələr tərəfindən ölkənin iqtisadi sisteminin səmərəli fəaliyyətinin pozulmasına, təbii resursların istismarı və saxlanılmasına və dünya bazarına çıxarılmasına qarşı yönəldilmiş tədbirlərin həyata keçirilməsi, beynəlxalq teror təşkilatlarının fəaliyyəti, iqtisadi, siyasi, hərbi, kəşfiyyat və digər sahələrdə xarici strukturların Azərbaycan Respublikasının iqtisadi təhlükəsizlik sahəsində maraqlarına zidd istiqamətlənmiş fəaliyyəti aiddir.

İqtisadi təhlükəsizliyə təhdidlərin daxili mənbələrinə isə iqtisadi və sosial sahələrin müasir texnologiyalarla zəif təmin edilməsi, dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin koordinasiyasının zəif təşkil edilməsi, həyata keçirilən tədbirlərin qeyri-effektivliyi, iqtisadi təhlükəsizlik sahəsində normativ-hüquqi bazanın müasir tələblərə cavab verməməsi, iqtisadi təhlükəsizliyin təmin edilməsi sahəsində dövlət tərəfindən qəbul edilmiş qərarlar haqqında cəmiyyətin kifayət qədər məlumatlandırılmaması və həmin qərarların mahiyyətinin yetərincə izah edilməməsi və digər məsələləri arqument kimi göstərə bilərik. Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinə potensial və ya real təhdidləri, mümkünlüyündən asılı olaraq, Sxem 1-dəki kimi qruplaşdıra bilərik.

## 4. Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təmini istiqamətində dövlət siyasətinin institusional tənzimlənməsi xüsusiyyətləri

Ümumiyyətlə, iqtisadi təhlükəsizliyin təmininin əsas məqsədi kimi milli maraqların qorunmasına yönəlik kompleks müdafiə sisteminin və yaxud adekvat




**Sxem 1. Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinə yönəlik potensial və ya real təhdidlərin əsas istiqamətləri**

Mənbə: *sxem müəllif tərəfindən tərtib edilmişdir*

fəaliyyət strategiyasının əsas elementlərinin formalaşdırılması çıxış edir. Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təmin edilməsi iqtisadiyyatın inkişafına təhlükə yaradan daxil və xarici amillərdən qorunması, cəmiyyətin ayrı-ayrı subyektlərinin hərtərəfli inkişafı üçün əlverişli şəraitin yaradılması və ümumilikdə əhalinin yaşayış səviyyəsinin yüksəlməsi, cəmiyyətin sosial-iqtisadi sabitliyinə, iqtisadi hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş vahid dövlət siyasətinin həyata keçirilməsini nəzərdə tutur. Azərbaycan Respublikasının qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları, ictimai təşkilatlar tərəfindən həyata keçirilən iqtisadi təhlükəsizlik sahəsində dövlət siyasətinin əsas istiqamətlərini aşağıdakı kimi qruplaşdıra bilərik:

1. İqtisadi müstəqilliyin təmin edilməsi və diversifikasiyalaşmış iqtisadi struktur vasitəsilə davamlı iqtisadi inkişafa nail olunması;
2. İqtisadi təhlükəsizliyə təhdidlərin aşkarlanması, təhlili və proqnozlaşdırılması;
3. İqtisadi təhlükəsizliyə təhdidlərin qabaqlanması üzrə strateji tədbirlərin hazırlanması və reallaşdırılması;
4. İqtisadi təhlükəsizlik sahəsində həyata keçirilən tədbirlərin effektiv monitorinq sisteminin qurulması;
5. İqtisadi təhlükəsizlik göstəricilərinin müəyyənləşdirilməsi və bu göstəricilər üzrə kritik hədlərin hesablanması və s.

Məhz bu baxımdan da respublikamızın milli iqtisadi təhlükəsizliyinin institusional tənzimlənməsi aşağıdakı istiqamətləri özündə cəmləşdirməkdədir:

1. Müvafiq dövlət institutları tərəfindən milli iqtisadi təhlükəsizliyə mümkün daxili və xarici təhdidlərin əvvəlcədən müəyyənləşdirilməsi və proqnozlaşdırılması;
2. Mümkün təhdidlərin aradan qaldırılması istiqamətində müvafiq dövlət institutları tərəfindən operativ qısa, orta və uzunmüddətli neytrallaşdırma ssenarilərinin işlənilib hazırlanması;
3. Milli iqtisadi təhlükəsizliyi təmin edən qüvvə və vəsaitlərin formalaşdırılması və hazırlığının təmin edilməsi;
4. Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərinə müvafiq olaraq ümumi və regional təhlükəsizliyin təmin olunmasında iştirakı və s.

Milli təhlükəsizliyin, xüsusilə də, iqtisadi təhlükəsizliyin institusional tənzimlənməsini aktuallaşdıran əsas amil kimi iqtisadi təhlükəsizlik siyasətinin əsas elementləri arasındakı sıx bağlılıqdır, hansı ki, onlarında nizamlı bir şəkildə işlənməsini təmin etmək üçün bir sıra aidiyyəti dövlət institutları arasında müvafiq səlahiyyət bölgüsünün ən optimal şəkildə gerçəkləşdirilməsi tələb olunur. Azərbaycan Respublikasında milli iqtisadi təhlükəsizlik sisteminin institusional tənzimlənməsi əsas etibarilə "Milli Təhlükəsizlik haqqında" 29 iyun 2004-cü il tarixli Qanunla təsbit olunmuş qaydada dövlət tərəfindən yaradılan, qanunvericilik çərçivəsində fəaliyyət göstərən və Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin etmə qabiliyyə-

tinə malik olan qurumlar tərəfindən həyata keçirilir. Yuxarıda qeyd etdiyimiz institusional qurumlar öz səlahiyyətləri çərçivəsində aşağıdakı tədbirləri həyata keçirməklə yanaşı birgə kordinasiya edilmiş şəkildə fəaliyyət göstərirlər:

1. Azərbaycan Respublikasının milli iqtisadi təhlükəsizliyinin təmin olunması ilə əlaqədar tədbirlər planlaşdırır və həyata keçirirlər;
2. Azərbaycan Respublikasının milli iqtisadi təhlükəsizlik sistemini təkmilləşdirilməsi ilə bağlı müvafiq istiqamətlərdə təkliflər verirlər;
3. Azərbaycan Respublikasının milli iqtisadi təhlükəsizliyi sahəsində qanunlara və digər normativ hüquqi aktlara riayət olunmasını təmin edirlər;
4. Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyini təhdid edən, milli maraqlara zərər vura biləcək mümkün fəaliyyətlərin qarşısının alınması istiqamətlərində müvafiq tədbirlər görürlər və s.




**Sxem 2: Milli iqtisadi təhlükəsizlik siyasətinin elementləri arasındakı qarşılıqlı asılılıq**

Mənbə: *sxem müəllif tərəfindən tərtib edilmişdir*

Ümumiyyətlə, Azərbaycan Respublikasında milli iqtisadi təhlükəsizliyin təmin edilməsi istiqamətində əsas tənzimləyici tədbirlər iki mühüm istiqaməti özündə ehtiva etməkdədir ki, onlardan birincisi kimi daxili iqtisadi təhlükəsizlik üçün yəni, Azərbaycan Respublikasında iqtisadi və sosial sabitliyin qorunması üçün müvafiq şəraitin yaradılması və ikinci kimi isə xarici iqtisadi təhlükəsizlik, milli iqtisadi mənafelərin xaricdən mümkün risk, təhlükə və təhdidlərdən qorunması üçün iqtisadi və ya diplomatik tədbirlər kompleksinin reallaşdırılmasından ibarətdir.




**Sxem 3. Milli iqtisadi təhlükəsizlik sisteminin tənzimlənməsi sahəsində fəaliyyət göstərən institusional dövlət strukturları**

Mənbə: *sxem müəllif tərəfindən tərtib edilmişdir*

Sxem 3-dən də göründüyü kimi, milli təhlükəsizliyin institusional tənzimlənməsi ilə məşğul olan dövlət strukturları əsas etibarilə iqtisadi sferada təhlükəsizliyin təmini ilə məşğul olan qurumlardır. Təbii ki, təhlükəsizliyin digər istiqamətləri ilə də müvafiq dövlət strukturları koordinasiyalı bir şəkildə fəaliyyət göstərirlər. Bizim tədqiqatımızın predmeti kimi iqtisadi təhlükəsizlik sferasının institusional strukturları və onların tənzimlənməsi xüsusiyyətləri olduğundan onların əsaslarının təşkilati-idarəetmə strukturlarında sözügedən istiqamətin tənzimlənməsinin əsas meyillərini qeyd etmək xüsusilə yerinə düşərdi. Belə ki, bu sferanın əsas institusional tənzimləmə qurumların biri kimi AR-sı İqtisadi İnkişaf Nazirliyinin əsasnaməsində milli iqtisadi təhlükəsizliyin tənzimlənməsi və təminatı məsələləri ilə əlaqədar aşağıdakı istiqamətləri tezisləşdirə bilərik:

1. Nazirlik fəaliyyət istiqamətləri çərçivəsində - dövlətin iqtisadi təhlükəsizliyi və davamlı inkişafı, iqtisadi maraqlarının qorunması sahəsində tədbirlərin hazırlanmasını və müəyyən edilmiş qaydada həyata keçirilməsini təmin edir;
2. Nazirliyin vəzifələri çərçivəsində - Azərbaycan Respublikasının iqtisadi və ərzaq təhlükəsizliyi ilə bağlı aidiyyəti dövlət orqanlarını cəlb etməklə tədbirlər işləyib hazırlayır və həyata keçirir;
3. Nazirliyin iqtisadi siyasət, təhlil və proqnozlaşdırma şöbəsinin əsasnaməsində isə - iqtisadi təhlükəsizlik, davamlı inkişaf, iqtisadi maraqlarının qorunması sahəsində tədbirlərin hazırlanmasını və müəyyən edilmiş qaydada həyata keçirilməsini, əmək ehtiyatları və məşğulluq, infrastruktur, sənaye, aqrar

sahələri, iqtisadi və ərzaq təhlükəsizliyi, ekologiya və ekoloji təhlükəsizlik, enerji resurslarından səmərəli istifadə, daxili ticarətin inkişafı, sığorta, qiymətli kağızlar bazarı, büdcə, monetar, vergi, pul-kredit və valyuta, qiymət-tarif siyasəti, bank fəaliyyəti, dövlət satınalmaları tədbirlərinin və müvafiq normativ hüquqi aktların hazırlanmasında və ekspertizasının aparılmasında bilavasitə iştirak edir və s.

Bu qurumla yanaşı Azərbaycan Respublikasında iqtisadi təhlükəsizliyin institusional tənzimlənməsi ilə Dövlət Gömrük Komitəsi bilavasitə məşğul olur ki, hansı ki, dünya təcrübəsinə nəzər saldıqda görə bilərik ki, məhz bu qurum əksər milli iqtisadiyyatların iqtisadi təhlükəsizliyinin əsas aparıcı strukturu qismində çıxış edir. Respublikamızda Dövlət Gömrük Komitəsinin əsasnaməsinə nəzər saldıqda aşağıdakı institusional tənzimləmə istiqamətlərini konkret tezisləşdirə bilərik:

1. Komitənin əsas funksiyaları çərçivəsində - öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının iqtisadi mənafeyini və təhlükəsizliyini qorumaq;
2. Komitənin hüquqları çərçivəsində - dövlət təhlükəsizliyinin, ictimai asayişin, əhalinin mənəviyyatının, insanların həyat və sağlamlığının, heyvan və bitkilərin, ətraf mühitin qorunması, daxili bazarın və Azərbaycan istehlakçılarının mənafeyinin müdafiəsi üzrə tədbirlərin həyata keçirilməsində Azərbaycan Respublikası gömrük orqanlarının iştirakını təmin etmək və s.

Bütün bunlarla yanaşı Respublikamızda milli iqtisadi təhlükəsizliyin institusional tənzimlənməsi ilə əlaqədar həyata keçirilən tədbirlər sistemi çərçivəsində ayrı-ayrı tarixi dövrlərdə Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin yerinə yetirilməsinin effektivliyini artırmaq məqsədilə müxtəlif tərkibli (*hökumət, qeyri-hökumət, müstəqil ekspert və akademik dairə təmsilçiləri*) işçi qrupları yaradılmışdır. Həmin işçi qruplarının əsas fəaliyyət istiqamətləri kimi isə xarici siyasət strategiyasının, hərbi doktrinanın və milli təhlükəsizlik sahəsində digər konseptual sənədlərin işlənib hazırlanması və hökumətə təqdim edilməsi prioritetləşdirilmişdir.

Milli təhlükəsizliyin institusional tənzimlənməsi istiqamətində həyata keçirilən tədbirlər həmin milli iqtisadiyyatların daxili qanunvericilikləri, regional və eləcə də beynəlxalq təşkilatlar qarşısında götürülmüş öhdəliklər ilə yanaşı beynəlxalq iqtisadi hüququn prinsiplərinə əsaslanaraq reallaşdırılır.

Belə ki, milli iqtisadi təhlükəsizliyin təhdid altında olduğu şərait regional və eləcə də qlobal xarici iqtisadi parametrlərin mobil və həmçinin, koordinal bir şəkildə dəyişməsi nəticəsində baş verir ki, hansı ki, həmin situasiyada milli iqtisadi sistemin əsas elementləri birbaşa təhlükəli situasiyaya girmiş olur. Məhz bu konteksdən bəzi elmi dairələrdə iqtisadi təhlükəsizliyə yönəlik təhdidlərlə milli mənafelərə yönəlik təhdidlərin fərqli şəkildə təsbit olunmaları və onlara qarşı fərqli preventiv müdafiə mexanizmlərinin eyni qətiyyətliliklə reallaşdırılmasında öz təsdiqini tapır.

Dünya iqtisadi sistemində müşahidə edilən mobillik, heç şübhəsiz, konkret milli iqtisadiyyatlarda ona adekvatlılığın təmin edilməsini zərurətə çevirməkdədir. Bu gün

milli təhlükəsizlik sisteminin effektiv təmini bilavasitə onun optimal institusional tənzimlənməsini birmənalı şəkildə tələb edir ki, bu konteksdə də konkret milli iqtisadiyyatlar daima islahatlar aparmalı və daha mütərəqqi idarəetmə mexanizmlərini tətbiq edərək sözügedən sferada mütləq üstünlüyə malik olmalıdırlar. Elə bu baxımdan da müstəqilliyimizin əldə edilməsindən keçən iyirmi ili dəyərləndirdikdə milli təhlükəsizlik xüsusilə də iqtisadi təhlükəsizliyin təminatı, onun institusional tənzimlənməsi istiqamətində görülən məqsədyönlü tədbirlərin nəticələrini effektiv qiymətləndirir və bu sahədə qabaqcıl dünya təcrübəsindən istifadə edərək daha mobil və yaxud adekvat tənzimlənmə mexanizmlərinin işlənməsini məqbul hesab edirik.

## 5. Nəticə

Bütün bu tədqiqat xüsusiyyətlərini ümumiləşdirərək qeyd edə bilərik ki, iqtisadi təhlükəsizliyin təmin edilməsi mexanizmləri konkret milli iqtisadiyyatlar üçün spesifik xarakter kəsb etməkdədir. Apardığımız tədqiqatları ümumiləşdirərək qeyd edə bilərik ki, iqtisadi təhlükəsizliyə sosial-iqtisadi, struktur-texnoloji, institusional və xarici iqtisadi təhdidlərin qabaqlanması, neytrallaşdırılması və baş verdikləri təqdirdə mənfi nəticələrinin aradan qaldırılması üçün ardıcıl və kompleks tədbirlərin həyata keçirilməsi sözügedən təminat mexanizminin obyektiv ilkin əsasını təşkil edəcəkdir. Məhz aidiyyəti dövlət institutlarının birgə fəaliyyəti nəticəsində sözügedən siyasət ölkə iqtisadiyyatının mövcud strukturunu nəzərə almaqla onun optimallaşdırılması məqsədinə xidmət edəcək, təbii resurslardan istifadənin səmərəliliyinin artırılması ilə yanaşı qeyri-neft sektorunun inkişafını ön plana çəkərək iqtisadiyyatın diversifikasiyasına yönələcəkdir.

## Ədəbiyyat siyahısı:


1. Aslanov E. (*2006*), Yeni dünya nizamı və milli inkişaf. Bakı: 295 s.
2. Kearney A.T. (*2003*), Measuring globalization. İnternational politics-enduring consepts and conternporary issues, Longman publishers, 439 s.
3. Bislev Sven. (*2004*), Globalization, state transformation and public security. İnternational political science review, Vol. 25. 587 s.
4. Федетов А.П. (*2002*), Глобалистика: начало науки о современном мире. М.: 421 s.
5. Amstrup N. (*1996*), The percnial problem of small states: a survey of research efforts, cooperation and conflict. C 11. p. 257.
6. Buzan B. (*1991*), People, states and fear: an agenda for international security studies in the post-cold war era, New York, Harvester Wheatsheaf, p. 218.
7. M. Ali Bal., (*2003*), Modern devlet ve güvenlik, İstanbul, İQ kültür sanat yayın, pg 522.
8. Ayoob M. (1994), Security in the third world: searvhing fort the core variable. Seeking security and development - the impact of military spending and arms transfers, USA, Lynne Rienner publishers, p. 328.

9. Степашина С.В. (*2001*), Экономическая безопасность Российской Федерации: Учебник для вузов. чл. / СПб.: Издательство “Лань”, 608 с.
10. Dedeoğlu.B, (*2003*), Uluslararası güvenlik ve strateji. İstanbul, Derin yayınları, 257 s.
11. Mehdiyev.R, (*2008*), Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti.Bakı: 215 s
12. www.prezident.az - Azərbaycan Respublikası Prezitentinin rəsmi saytı (AR NK-nin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası).
13. “Milli təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının 29 iyun 2004-cü il tarixli Qanunu.
14. Krahmann Elke. (*2005*), From state to non-state actors: the emerge of securty governance. New threats and new actors in international security, Palgrave Macmillan, 245 s.
15. Buzan B., (*1991*), People, states and fear: an agenda for international security studies in the post-cold war era. New York, Harvester Wheatsheaf.

**Алиев Сеймур Джаваншир оглы**
докторант, Азербайджанский Государственный Экономический Университет

## Институциональные аспекты государственной политики по обеспечению экономической безопасности Азербайджанской Республики

### Аннотация

*Цель исследования*: состоит в комплексных исследованиях особенностей деятельности конкретных государственных институтов и аспектов государственной политики в сфере обеспечения экономической безопасности Азербайджанской Республики.

*Методология исследования*: методы системного подхода и статистических группирований.

*Результаты исследования*: изучена сфера экономической безопасности Азербайджанской Республики, установлены потенциальные и реальные угрозы и в комплексном виде изложены особенности деятельности государственных институтов в направлении реализации комплексных адекватных превентивных механизмов.

*Ограничении исследования*: учитывая, что исследования в области институциональных аспектов государственной политики экономической безопасности Азербайджанской Республики являются сравнительно новым направлением экономической науки, в работе не приводился сравнительный анализ с другими похожими исследовательскими работами.

*Практическое значимость исследования*: положения, выдвигаемые в работе позволяют выявить некоторые аспекты важных механизмов регулирования разделения обязанностей и полномочий между государственными институтами в данной сфере деятельности в подготавливаемой государственной концепции.

*Оргинальность и научная новизна исследования*: проведена необходимая систематизация на основе анализа теоретических и эмпирических источников, связанных с аспектами институциональных механизмов по обеспечению экономической безопасности.

**Ключевые слова**: *экономическая глобализация, стратегия национального развития, экономическая безопасность, потенциальные и реальные меры, институциональные механизмы.*

**Aliyev Seymur Cavanshir oglu**
Phd-student Azerbaijan State Economic University

## Institutional aspects of state policy on provision of economic safety of Azerbaijan Republic

## Abstract

*Purpose*: Institutional aspects of state policy on provision of economic safety of Azerbaijan Republic and the activity characteristics of concrete state institutions consists of complex research.

*Methodology*: Systematized approach and grouping methods.

*Findings*: The economic safety environment of Azerbaijan Republic are studied, potential and real measures are determined adequate preventive mechanism of state institutions towards the realization of state institutions activity characteristics have been complexly revealed.

*Limitations*: Institutional aspects of state policy on provision of economic safety of Azerbaijan Republic is the new research theme and the lack of the large scaled research works on this theme require the use of new alternative research works.

*Practical implications*: The suggested opinions among the operating state institutions make condition to the main trajectory distribution. Some aspects of regulation mechanism having s great importance in state conseption have been revealed.

*Originality*: Theoretical and empiric resources in connection with the institutional aspects in provision of economic safety have been revealed and necessary systematization have been made.

**Key words**: *economic globalization, national development strategy, economic safety, potential and real pressure, institutional mechanism.*

**JEL Classification Codes**: A11, E02, E21, F52

Məqalə redaksiyaya daxil olmuşdur: 09.08.12.
Təkrar işləməyə göndərilmişdir: 18.09.12.
Çapa qəbul olunmuşdur: 25.10.12.